


**Anatoli Matviyenko**
**Belarus**


# Odlu Əjdaha

## (tarixi-fantastik hekayə)

*Tanınmış Belarus yazıçısı Anatoli Matviyenko (Matviyenko Anatoli Yevgenyeviç) 1961-ci ildə Minsk şəhərində anadan olub. Bədii yaradıcılıq fəaliyyətinə 2012-ci ildən başlayıb, Sankt-Peterburq şəhərində iki kitabı çıxandan sonra 14 roman yazıb. Onun romanları tarixi-fantastik janrdadır. İndiyə kimi Rusiya və Belarusun nəşriyyatlarında ondan çox kitabı çapdan çıxmışdır. Onun məqalələri, esseleri, fantastik-tarixi janrda yazdığı hekayələri, povestləri Belarusda, Rusiyada, Ukraynada, Almaniyada müxtəlif almanax və jurnallarda işıq üzü görüb. O, Belarus Yazıçılar İttifaqının üzvüdür. A. Matviyenko hazırda Minskdə "Zvezda" Nəşriyyat Evində Beynəlxalq "Sozvuçie" saytının ədəbiyyat üzrə aparıcı redaktorudur. Aşağıda onun bir hekayəsini oxuculara təqdim edirik.*

***

Amsterdamdan bir qədər aralıda yerləşən Simon Şnvutun meyxanası adamla doluydu. Ağzında trubka, girdəsaqqal gəmi ustası Frederik Hals kapitan Şonebekin gəmi heyətini hələ ispanların vaxtında tikilmiş mötəbər bir yerə gətirmişdi. Meyxana sahibi qabaqcadan artıq adamları çölə çıxartmışdı, döşəməni yumuş, mizləri səliqəyə salmışdı. Lakin qaranlıq küncdə yalnız bircə nəfər oturub qalmışdı. O, heç kimə mane olmurdu, heç kəsin də zəhləsini tökmürdü; kapitan Şonebek də sadəcə maraq xətrinə soruşdu ki, orda oturan qoca kimdi belə?

Yaşlı adam nimdaş mahud gödəkcədəydi; əzilmiş şlyapası mizin üstünə atılmışdı. Qocanın sifətinin yarısı yanmışdı, sağ qaşının altında dəlik vardı. Lakin o, sakit görünürdü, sol qaşının altındakı salamat gözü bulanıq idi, kədərlə yaşarmışdı.

-Oooo, bu ki bizim məşhur Yohan van Reyndir! Yaxın gəl, otur burda, - deyə Şnvut onu çağırdı. - Pivəyə qonaq edirəm səni. Amma gərək bizə danışasan ki, o gözünü harda itirmisən...

Qoca nizamsız hərəkətlə yerindən qalxdı. Taxta çəkmələri daş plitələri taqqıldadırdı. Gəlib gəmi heyətinin ortasında durdu, əyri nəzərlərini asta-asta adamların üzündə gəzdirdi.

-Hey, dənizçilər, deyin görüm odlu əjdahanın belindəki uçuşdan xəbəriniz var? Bilmirəm, Hindistanda, ya da Afrikada olub...

Qonaqlar pivə içirdilər, başlarını qabaqlarındakı ətə əyərək şəhərləri yandıran və qızları əsir götürən ilan barədə əfsanəyə qulaq asmağa hazırlaşırdılar. Lakin təkgöz qoca onların marağını inanılası daha çətin bir tarixçəyə yönəltdi.

-Bu, çoxdan olub. O zaman mən çox cavan və güclüydüm, əlahəzrət Frederik Henrix Oranskinin ordusuna qoşulub ispan şeytanlarıyla vuruşmağa getdim.

Onu dinləyənlərin üzü təəccübdən gərildi. Axı o şeytanların qovulmasından yarım əsr keçmişdi! Bəs onda bu qocanın, van Reynin indi neçə yaşı olar?

-Günlərin bir günü biz Antverpen yaxınlığındakı Kyust şəhərinə girdik. Eşitməmisiz? Hücumdan sonra orda səs-səmir kəsildi. Amma bu şəhəri uzun müddət tuta bilmirdik; hə, hə, şəhər başdan-başa təpəlik idi. Ora heç yaxınlaşmaq da mümkün deyildi. Mina basdırmaq üçün çala da qaza bilmirdik. Şəhərin qala divarları çox hündür idi. Cındır bir şəhərcik idi də... amma onu necə arxamızda saxlayaydıq axı? Bəs şəhərə necə yaxınlaşaq? Orda hər döyüşçünün muşketi vardı, güllənin başında toplar hazır vəziyyətdə idi. Nə isə...yüz addım atsaydın öləcəkdin. Biz nərdivanlarla qala divarlarının dibinə qaçdıq, Allaha and olsun, yarımız qırıldı... geri dönəndə isə gördük ki, on nəfərimizdən biri sağ qalıb.

Dənizçilər ağciyər deyildilər, fırtına, tufan, sualtı qayalıqlar görmüşdülər, pirat abordajlarının şahidi olmuşdular. Qocanın sözlərinə ixtiyarsız diksindilər, elə bildilər ki, kişinin dediyi o qala divarlarından od yağırmış...

-Axır dolu bədənli, ciddi görkəmli Frederik Oranskinin özü gəldi. O, atlas kamzol geyinmişdi, şlyapasının qırağında da plümaj vardı. Onunla birlikdə bir nəfər də gəlmişdi, arıq, solğun sifəti vardı, başına sadə qara şlyapa qoymuşdu, tələbələr kimi əyninə uzunətəkli qırmızı kaftan geyinmişdi. Litva knyazlığından idi. Ona pan Kazimir Semyonoviç deyirdilər. Bizim süvari ekadronumuzda cəmi əlli nəfər adam qalmışdı, həmin arıq cənabı da bizə təyin elədilər.

-Hansı knyazlıqdan dedin? - Şonebek yenə soruşdu. - Leh idi?

-Yox, bir qədər şərqdən. Orda hansısa rus vilayəti var... Qərbi rus vilayəti də var... Axı o həm də Ağdı, Tartariya da var...

-Bilirəm!-kapitan dedi. - Mən onların paytaxtında olmuşam, Arxangelskdə. Bəlkə də paytaxt deyil... Hə, nooldu, o pan necə oldu bəs?

- Adam çox qəribəydi, leh kralının katolik təbəəsiydi, bizə də inanırdı. Əsl mömin idi də... Lakin Kyustun qala divarını görən kimi dərhal bildirdi ki, içəri girmək üçün bir üsul var. Bunun üçün ona cəsur adamlar lazımdı. Reytarlar (süvari eskadronu) bəyəm qorxaq adamlar olur?

Bu yerdə təkgöz qoca susdu, pivədən bir qurtum içdi, sonra ət tikəsini götürüb salamat qalan dişlərinə çəkdi.

-Hə, deməli, o, məni seçdi. Dedi ki, dəmir geyimini soyun. Necə yəni, soyun? Belə də şey olar? Axı reytarlar döyüşə yalnız dəmir geyimdə gedirlər! Gör də, işi-gücü qurtarmışdı... hə... Sonra məni arabaya tərəf apardı. Adi arabaydı, amma dörd cüt at qoşulmuşdu. Litvalı pan mənə əmr elədi ki, arabanın arxasına keçim... sonra məni dayça kimi arabaya qoşub bağladı, özü də əks tərəfdə oturdu və qozlada oturan oğlana da qışqırdı - di, tərpən! O da atları qamçıladı.

-Bə sonra nooldu? - kapitan bu hekayətdə hələ də qeyri-adi heç nə görmürdü, yəni, bir göz itirmək üçün burda heç bir təhlükə-filan yox idi.

-Atlar tərpənən kimi məni də öz arxalarınca dartdılar. Sürüdülər... Dönüb arxama baxdım və gördüm ki, dalımdan yelkən qalxdı, məni də yuxarıya qaldırır. Ayaqlarım arabanın üstündən sallanmışdı. Pan gülürdü, barabanın kəndirini boşaldırdı. Kəndir isə mənim yəhərimə bağlanmışdı. O, kəndiri boşaltdıqca, mən də qalxırdım yuxarı. Çox qorxuludu, həm də biabırçılıq idi. Harda görünüb axı, mötəbər bir lüteran arabanın dalınca bağlanmış halda sürünsün, hə?

Dənizçilər səs-küy saldılar. Onlar dor iplərində o qədər o tərəf-bu tərəfə yellənmişdilər ki... Heç veclərinə də olmurdu. Amma quruda, atların dalınca dartınıb beləcə uçmağı heç ağıllarına belə gətirməzdilər... Belə də şey olar?

-Hə, deməli, litvalı məni beləcə sürüdü. Reytarlar isə bir-biriləri ilə mərc gəlirdilər: görəsən, mənim boynum qırılacaq ya yox? Öləcəyimə on styuver qoymuşdular, sonra da gümüş qulden qoydular mərcə. Bax beləəəəə... Atlar tərpənmişdilər ki, mən üç metr hündürlükdən aşağı yumbalandım, elə bildim çəkmə qarışıq ayaqlarım qopub düşdü.

Dənizçilər gülüşdülər. Parçlara təzə pivə süzüldü. Kapitan cavanlıqda Formozda çinlilərin əyləncəsini görmüşdü, hava ilanlarıydı. Lakin onların quyruqlarına insan bağlanmamışdı. Qoca bığlarından köpükləri silə-silə davam elədi:

-Mənim bütün içalatım alt-üst olmuşdu, lakin pan isə öz fikrində durub qalmışdı: qala divarının üstünə qədər tullanmalısan. Gərək daha hündürə qalxasan. Mənə xüsusi ləvazimat göstərdi, gözlərimə inanmırdım. Məzəli, oyuncaq bir raketə dönmüşdüm, insan cildində. Dəhşətliydi. Raket köndələn vəziyyətdə tir idi, on metr olardı, uzununa isə ya beş, ya da altı. Təxminən yarım çəllək də barıt...Bir funtluq top barıtı elə guruldayır ki, gəl görəsən, burda isə söhbət yarım çəllək barıtdan gedirdi...

Dənizçilər tərəddüdlə başlarını yellədilər.

-Pan soruşdu: yenə uçmaq istəyirsən? Yox a...bütün içalatım töküləb...Mən qorxmurdum... amma, bir var düşmən üstünə hücuma keçəsən, bir də var, bilə-bilə ölümün üstünə... Hazır ölüm idi də. Axı məlumdur: özünə əl qaldırmaq günah sayılır.

-Əlbəttə, əlbəttə! - səslər gəldi, sanki meyxanadakıların yadına birdən-birə xaç düşdü: Allahın rizası olmadan özünü öldürmək barədə düşünmək belə günahdır.

-Pan Semyonoviç əminliklə gülürdü, deyirdi: madam ki, reytar bu qədər qorxaqdı, onda nə etməli olduğumuzu özüm göstərəcəm. O, iki raketi Müqəddəs Valentinin adındakı V hərfinə uyğun birləşdirdi. Arxa şüvülü iyirmi metr elədi, dedi ki, qoy dümdüz getsin. Mənə də əmr elədi ki, get dur sahənin uzaq küncündə, küləyə əks istiqamətdə. Və gözlə.

Bu yerdə qoca Reyn susdu. Dənizçilər gördülər ki, onun parçına qızılı pivə süzüldü.

-Uzatma, de görüm sonrası nə oldu?

-Sonra qamçının şaqqıltısını eşitdim. Atlar dördnala götürüldü. Birdən dəhşətli bir partlayış qopdu... Atların başı üstündə nəsə tutqun bir alov göründü, heyvanlar qorxdular, daha bərkdən qaçmağa başladılar... Tüstü, alov, həəəə.... Daldan isə iplə bağlanmış həmin yelkən açılmışdı, uçurdu...altında insan fiqurası!

-Yohan, yalan demirsən ki?- kapitan acıqla soruşdu. - Bu, harda görsənib ki...

-Elə mən də bunu demək istəyirəm də! Yer üzündə az möcüzə baş verməyib! Lakin o möcüzə möcüzələrin möcüzəsiydi! Raket uzağa düşmədi, alova bürünmüş ayğırlar yandılar, kəllə mayallaq yerə sərələndilər. Pan da yıxıldı. Deyir, eybi yox, heç bir çətin iş yoxdu. Hamı istirahət eləsin, sabah Kyustu alacağıq...

Van Reyn ağır-ağır köks ötürdü, sanki həmin sarsıntını yenidən yaşadı.

-Bircə ümid qalmışdı: litvalı bu qədər cihaz-mihazı düzəldə bilməyəcək. Daha doğrusu, vaxt çatmayacaq. Amma sən saydığını say, gör fələk nə sayır. Frederik Oranskinin adı gələndə bütün işlər vaxtında görülürdü. Və bir gün sonra, hava qaralanda pan bizi on-on sıraya düzdü. Elə bil sərçəydik, budağın üstündə sırayla oturmuşduq, arabanın arxa hissələrində sıralanmışdıq. Mən də oturmuşdum... hə, hə... oturmuşdum, özü də düz iki reytarın pistol və xəncərinin toqqasının üstündə. Qabağımdakı da piyada qoşunlarından olan cavan bir oğlan idi. Ona tapşırılmışdı ki, tədricən ipi boşaltsın, yüz metr o yanda fitili yandırsın və sonra arabadan tullansın. Arabacıya da təlimat verilmişdi.

Əhvalata qulaq kəsənlər yeməklərini dayandırdılar. Nəfəslərini belə dərmədilər.

-Litvalı pan... qışqırdı... Atəş aç! Toplar guruldadı. O, topları xüsusi barıtlarla doldurmuşdu. Qala divarının o tayından alov qalxdı. Təsəvvür elə ki, bütün şəhər od tutub yanırdı. Və bu vaxt reytarların ilk arabası işə düşdü. On nəfər idilər. Sonra da dalınca bizimki getdi.

Van Reyn qonaqları süzdü. Onun yeganə gözü artıq yaşarmırdı, sanki içindəki alov onu qurutmuşdu.

-Aləm dəydi bir-birinə... Sən demə həmin piyada qoşunundan olan oğlan fitili yandırmamışdı, atlar da onu güllə yağışı altında qala divarının altına dartıb aparmadılar. Biz də çapırıq... deməli, sanki, dalımızca minlərlə cin gəlir. Mənim cavan oğlanım əlindəki məşəli fitil bağlamasına soxdu və od-alov püskürməyə başladı. Mən də qışqırıb yan tərəfə yıxıldım. Elə bil suya tullanırdım. Və o biri atların ayaqları altına düşdüm; Allaha and olsun, getdim o dünyaya... Mənim yəhərim isə yuxarı dartılırdı, yelkənlər onu qaldırırdılar...Və birdən raketlər açıldı...vıyıldamağa başladılar! Allah, allah... Az qaldı məni o dünyalıq etsinlər...Yuxarı qalxmışam, külək sifətimə vurur, ayağımın altı boşluqdur, dəhşətdən anqırmaq, bağırmaq istəyirəm...Yalnız dua edirəm: Müqəddəs Məryəm, mənə kömək elə! Qoy nahaq yerə ölməyim!...

Yohan əllərini yellədi.

-Bilmirəm də... nə qədər havada uçdum! Sonra gördüm ki, yerə çırpıldım, təpəmdən tüstü çıxdı. Yadımda o qaldı ki, sifətim dəhşətli ağrıyırdı, bütün bədənim yanırdı...

O əlini yanağına və kor gözünün üstünə qoydu.

-Yaxşı ki, yıxılıb qol-qabırğanı sındırmamısan... -Şonebek heyrətləndi.

-Qoşquya ilişdim də... Düz zəng qülləsinin üstünə düşdüm. Gördüm ki, qüllə də alovlanıb, mənim kamzolum da od tutub yanır. Sonra daşlıq yerə yıxıldım. Orda bir qədər nəfəsimi dərdim, bıçaqla ipləri kəsdim və başladım kamzolu söndürməyə. Toplar isə susmurdu... Mən artıq fikirləşirdim ki, vəssalam, sondu. Bu köpəyoğlu bizi ölümün ağzına atıb. Belə də şey olar? Amma gördüm ki, mərmilər düz hədəfə dəyir, ispanlar qorxub qaçırlar. Mən də durub başladım darvazalara tərəf qaçmağa.

-Tək qaçırdın? - dənizçilərdən biri soruşdu.

-Əlbəttə, tək... Darvazanın ağzında üç nəfər keşikçi dayanmışdı, gözləmirdilər ki, arxadan zərbə alsınlar. Pistolumu çıxarıb onlara tuşladım, üçüncünü də öldürdüm. Sümüklərim şaqqıldayırdı, lakin dəmir çərçivəni qaldırdım. Darvazanın bir tayını açan kimi gördüm bütün eskadron qala divarlarına sarı töküldü. Əlbəttə, kimsə darvazaya hələ yüz metr qalmış o dünyalıq oldu, - deyə qoca yumruğunu mizə vurdu və görünür, döyüş yoldaşlarının ölümünə təəssüf edirdi. - Lakin içəri girdik, deməli, şəhərdə kişiləri xəncərlə doğradıq. Bə nədi, mühəribədi də! Amma arvadlara və uşaqlara dəymədik, hə, hə, onlara rəhm elədik... Monastrda mənim yanıqlarımı sarıdılar, amma gözümə heç nə etmək mümkün olmadı...Gözümü orda qoyub gəldim...

Van Reyn uzun müddət susdu. Sonra ona suallar yağdırıldı.

-Bəs o, həmin Tartariyadan olan adam necə oldu? Bəs qalan reytarlar? Arabada uçanları deyirik... - deyə gəmi ustası söhbətə qarışdı.

-Hə, yadıma düşdü, Tartariyadan deyildi. Bizə əvvəl dörd nəfər gəlmişdi, qonşu stapeldə baltayla nəsə kəsib-doğrayırdılar. Biri hündürboy idi, məndən iki dəfə boyca hündür adam idi, yanımda durmuşdu, söyüşcülün biriydi. Onların ölkəsinin əcayib bir adı da vardı, nəsə Moskoviya idi gərək ki...

-Mos-ko-vi-yaaa...- deyə meyxana sahibi sözü hecaladı. - Özlərindən ad uydururlar, vallah. Tələffüz eləmək də olmur... Hələ bizimkilərə bir bax: Koninqsqraxt, yaxud da Koninqinyulianabryuq.

-Öldülər onlar... - Yohan davam elədi. - Kiminin əlində raket partladı, kimi də qala divarına çırpıldı. Semyonoviç özü də öldü. Onu diridiri yandırdılar.

-Hə, hə, bu, katoliklərin əlində su içim kimi bir şeydi... -Şonebek başını buladı.

-Yox e. Onu cəlladlar yox, rəqibləri yandırdı. Litvalı kitab yazmışdı - "Artilleriya böyük sənətdir". Bax elə bu da onu məhv elədi, - deyə van Reyn başını aşağı əydi. - Hesab etmişdilər ki, o, bu kitabda düşmənə sirr açıb, yəni sex-dəzgah sirrləri...Axı sexdə təkcə top, mərmi yox idi, həm də raketlər vardı.

-Moskovidə gecələr uzundu,- deyə kapitan fikrə daldı. - Gör onların ağlına nələr gəlir e... Çox qəribə şeylərdi...Yohan, de görüm axı sən niyə özgə məmləkətlərdəki odlu əjdaha barədə soruşursan? Sifətinin yarısı yanıb, gözünün biri çıxıb, qorxmursan? Bəs deyil sənə?

-Əlbəttə, qorxuram! Külək, alov, raketlərin vıyıltısı, uğultusu, ayağımın altındakı boşluq... Bütün bunlar dəhşətdi... Kim ki bu dəhşətləri heç olmasa ömründə bir dəfə yaşayıb, onu heç vaxt unutmur. Və hökmən bir də istər bunları yaşasın! Yanan süpürgənin üstündə əcinnə kimi dünyanın başı üzərində dolaşmaqdan ötrü mənim gərək yenə on səkkiz yaşım ola...çünki qarşıdan qanlı döyüşlər, qəhrəmanlıq və şöhrət gələcək, bu balaca meyxanadakı qocanın uydurmaları yox!

**Tərcümə edəni:**
**Kamran Nəzirli**